MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 76**
**ORCID: 0000-0003-0334-6245**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0244**

**Aslan Xəlilov Əkbər oğlu**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının dosenti**
**E-mail: aslan_ashiq@mail.ru**

# ÜLKƏR ƏBÜLFƏTİN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK RUHİYYƏSİNİN TƏRƏNNÜMÜ

**Xülasə.** Məqalə çağdaş dövr Azərbaycan təsviri sənətinin gənc nümayəndələrindən biri olan Ülkər Əbülfətin yaradıcılığında mühüm yer tutan vətənpərvərlik ruhiyyəsinin tərənnümünə həsr olunub. Gənc yaşlarından rəssamlığa olan həvəsi ilə seçilən Ülkər Əbülfət yaradıcılığında əsas diqqəti vətənpərvərlik mövzusuna yönəltmiş, xüsusilə şəhidlərə və Qarabağ mövzusuna həsr olunmuş portretlər silsiləsi ilə tanınmışdır. Rəssam yalnız realist üslubda deyil, həm də orijinal texniki üsullarla – qarışıq texnika, zər səpmə, qrafik-yağlı boya sintezi vasitəsilə fərdi bədii dil formalaşdırmışdır.

Ülkər Əbülfətin yaradıcılığında portret janrı ilə yanaşı mənzərə və natürmort janrları da mühüm yer tutur. Onun çəkdiyi Qarabağ və Zəngəzur bölgələrinin dini-memarlıq abidələri, təbiət lövhələri və milli ornamentli kompozisiyaları Azərbaycanın mədəni-tarixi irsinə bədii münasibətini nümayiş etdirir. Xüsusilə "Qarabağ atları, Qarabağ xalçasının izi ilə" əsəri simvolik və fəlsəfi dərinliyi ilə fərqlənir. Məqalədə həmçinin rəssamın beynəlxalq miqyasda apardığı ictimai-mədəni fəaliyyətlər, Xocalı soyqırımı ilə bağlı təşəbbüsləri də onun fəaliyyətinin ayrılmaz hissəsi kimi təqdim olunur.

**Açar sözlər:** Ülkər Əbülfət, rəssamlıq, yaradıcılıq, vətənpərvərlik, Qarabağ, iki dövlət – bir millət

**Giriş.** Çağdaş dövr Azərbaycan təsviri sənətinin gənc nümayəndələri arasında özünəməxsus dəsti-xətti ilə seçilən rəssamlardan biri də Azərbaycan

Rəssamlar İttifaqının üzvü, Gürcüstan Respublikası Rəssamlar Birliyinin Yaradıcılıq İttifaqının, o cümlədən Azərbaycan Veteran Tankçılar Birliyinin fəxri üzvü Ülkər Əbülfətdir.

İlk ixtisas təhsilini Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında alan Ülkər Əbülfətin rəssamlığa olan həvəsi hələ erkən yaşlarında yaranmışdı. Onun rəsm çəkmə bacarığını müşahidə edən valideynləri stimul əlaməti olaraq gələcək rəssamı onu zamanında dəyərləndirib, lazımi rəsm avadanlıqları ilə təmin etmişdi. Gənc olmasına rəğmən mövzu və janr müxtəlifliyi ilə seçilən Ülkər Əbülfətin yaradıcılığında əsas yeri vətənpərvərlik mövzusu təşkil edir. Təbii ki, bunu şərtləndirən amillərdən biri məhz onun cəbhə bölgəsinə yaxın ərazidə - Beyləqanda dünyaya göz açması və Qarabağ müharibəsi zamanı müşahidə etdiyi hadisələr, yaşadığı hisslər, yaxın-uzaq qohumlarının şəhid olması idi. Odur ki, yaşananlar gənc rəssamın yaradıcılığına böyük təsir göstərmişdir.

**Əsas hissə.** Janr etibarilə daha çox tarixi, portret, mənzərə və natürmort janrlarına üstünlük verən Ülkər Əbülfət Qarabağ mövzusunda, xüsusilə Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizi əks etdirən ümumi sayı 600-dən çox müxtəlif texnikada yaradılmış rəngkarlıq və qrafika əsərlərinin müəllifidir. Şəhid portretlərinin çəkilməsini özünə mənəvi borc bilən Ülkər Əbülfət kətana köçürtdüklərini daha yaxından duymaq, yaşamaq üçün mütəmadi olaraq hərbi forma geyinib cəbhə bölgəsinə üz tutar, əsgər və zabitlərimizlə, xüsusilə şəhid ailələri ilə sıx-sıx təmas yaradardı. Rəssamın Allahverdi Bağırov, Raquf Orucov, Asif Məhərrəmov, Albert Aqarunov, Mübariz İbrahimov, Polad Həşimov və digər şəhidlərimizə həsr olunmuş portretləri məhz bu qəbildəndir. Bildiyimiz kimi, portret əsərlərində obrazın canlandırılması üçün xarakterin düzgün verilməsi əsas şərtdir. Bu mənada Ülkər Əbülfətin portretləri özünün yüksək ifadəliliyi ilə seçilir. Rəssam bu tip portretlərin yaranmasında yağlı boya texnikası ilə yanaşı rəssam qarışıq texnikadan da böyük məharətlə istifadə edir. Belə ki, o, qrafik cizgilər çəkilmiş yapışqan səth üzərinə zər səpməklə nəticədə təsvir edilmiş obrazı daha fərqli və cəlbedici forma-biçimdə bədii görüntüyə gətirir.

Ülkər Əbülfətin şəhidlərə həsr etdiyi portret – kompozisiyalar içərisində Azərbaycanın Milli Qəhrəmanı, yəhudi əsilli Albert Aqarunova həsr edilmiş

“Mən bu torpaqda yaşayıram” (2017) adlı rəngkarlıq tablosu xüsusi diqqət çəkir. Əsərin adını da məhz vaxtilə Albert Aqarunovun səsləndirdiyi “Mən azərbaycanlı olmasam da, bu torpaqda yaşayıram, bu torpağı qoruyacağam. Müharibə bitməsə, getməyəcəm” – ifadəsi şərtləndirmişdir. Əsərin olduqca maraqlı bədii həlli və kompozisiya quruluşu vardır: rəssam kompozisiyanın mərkəzində 23 yaşlı şəhidi 533 nömrəli T-72 tankının üstündə əyləşmiş halda təsvir etmiş, arxa planda – fonda Albert Aqarunovun şəhid olduğu günə (8 may 1992) müvafiq hava mühitini, kompozisiyanın sağ yuxarı küncündə Şuşa qalasının, sol yuxarı küncündə isə şəhidin döyüşdə vurduğu iki tankın bədii görüntüsünü vermişdir. Rəssam təsvir etdiyi şəhidin tankını real həyatda görmüş, hətta tankın içində də olmuşdur. Özünün təbirincə desək, “Mən o tankı görməsəm və hiss etməsəydim, çəkə bilməzdim”. Hazırda dağ yəhudilərinin sinaqoqunda saxlanılan bu əsərə görə Ülkər Əbülfət Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş mükafatla təltif edilmişdir.

Çəkdiyi yüzlərlə şəhid portretlərinin qarşılığında heç bir təmənna ummadan və yorulmadan çalışan Ülkər Əbülfətin yaradıcılığında görkəmli ictimai-siyasi və mədəniyyət xadimlərinin də portretləri kifayət qədərdir. Bu mənada rəssamın “İmadəddin Nəsimi və Rasim Balayev” (2019), “Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan” (2021), “Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahid Bağçı” (2023), “Ulu öndər Heydər Əliyev” (2023), “Leyla xanım Əliyevanın portreti” (2023) və s. portretləri qeyd edə bilərik.

Ülkər Əbülfətin yaradıcılığında “Bir millət, iki dövlət”, daha dəqiq desək, Türkiyə – Azərbaycan qardaşlığı, bu dövlətlər arasında qarşılıqlı mədəni-siyasi əlaqələrin tərənnümü də geniş vüsət almışdır. Bu mənada Türkiyə 15 iyul şəhidlərinə (15 iyul, 2016) həsr edilmiş portretləri, xüsusilə özünün dərin məna-məzmunu ilə seçilən və çoxfiqurlu kompozisiyadan ibarət “Türkiyə Cümhuriyyətinin yüz illiyi” (2023) əsərini qeyd etmək olar.

Çoxfiqurlu kompozisiyadan ibarət olan “Türkiyə Cümhuriyyətinin yüz illiyi” (2023) əsəri özünün dərin məna-məzmunu ilə seçilir. Türkiyə Cümhuriyyətinin yaranmasının yüz illiyinə həsr olunmuş bu əsərdə mərkəzi yeri Türkiyə bayrağının fonunda Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal

Atatürk və Türkiyə Respublikasının indiki prezidenti Rəcəb Tayyib Ərdoğanın bədii obrazları təşkil edir. Tabloda hər iki görkəmli türk siyasi liderinin dövründə Türkiyənin ictimai-siyasi və mədəni həyatında baş verən bir çox yeniliklər, o cümlədən Türkiyənin daxili və xarici siyasətinin bədii təzahürü öz əksini tapmışdır.



**Ülkər Əbülfət. "Türkiyə Cümhuriyyətinin yüz illiyi". 2023.**

Kompozisiyada təsvir edilən fiqur və ya elementlərin heç biri təsadüfi deyil, hər biri dərin məntiqə əsaslanmış və düşünülmüş şəkildə yerləşdirilmişdir. Belə ki, əsərin kompozisiya quruluşuna diqqətlə nəzər yetirsək, mərkəzi hissədə Türkiyə xəritəsinin siluetini və onun sərhədi boyu hər iki rəhbərin gördüyü işlərin əyani təcəssümünü müşahidə edə bilərik. Bu mənada Mustafa Kamal Atatürkün dövrü ilə əlaqədar türk xalqının milli qəhrəmanlıq rəmzi olan Çanaqqala Şəhidləri abidəsi (1915), Türkiyə Respublikasının qurulması (1923), müasir türk əlifbasının təsis edilməsi (1928) və Türkiyə dövlət bayrağının rəsmiləşdirilməsinin (1936) nişanələrini vurğulamaq olar. Aparılan uğurlu siyasətin davamı kimi Rəcəb Tayyib Ərdoğanın dövründə gerçəkləşən tarixi və mədəni hadisələrin də kompozisiyada yer alması əslində Mustafa Kamal Atatürklə başlayan müasir Türkiyə tarixinin Rəcəb Tayyib Ərdoğanda öz zirvəsini tapmasının əyani göstəricisidir. Nümunə olaraq İstanbulda yerləşən

Boğaziçi körpüsünün "15 İyul Şəhidlər Körpüsü" adlandırılması (2016), yeni tip günəş enerjisi paneli (2017), "Zeytun budağı" əməliyyatı (2018), "İstanbul Yeni Hava limanı"nın açılışı (2018), Qars Su Anbarının təchiz edilməsi (2020), Uzun müddət muzey kimi fəaliyyət göstərən Ayasofiya məbədinin məscidə çevrilməsi (2020), Qalata qülləsinin yenidən bərpası (2020), CSO Ada Ankara – Prezident Simfonik Orkestri memarlıq kompleksinin təmiri və bərpası (2020), Atatürk adına Giresun stadionunu (2021) qeyd etmək olar.

Tabloda Türkiyənin hərbi sənayesinin qüdrətini və sürətlə inkişaf etdiyini ifadə edən inqilabi yeniliklər də öz əksini tapmışdır. Belə ki, kompozisiyada üç hissədən ibarət olan Türkiyə silahlı qüvvələrinin – Quru Qoşunları (Altay tankı), Hərbi Dəniz Qüvvələri (TCG Anadolu Təyyarə gəmisi, Baş Sinif Sualtı gəmisi, Kəşfiyyat gəmisi, Fateh Qazma gəmisi) və Hərbi Hava Qüvvələrinin (Bayraqdar – PUA; Qızıl alma; TB2; Milli Döyüş Təyyarəsi) müasir tələblərə cavab verən texniki qüvvələri bədii görüntüyə gətirilib. Təsvir olunan bütün hərbi qüvvələr kompozisiyada elə yerləşdirilib ki, onların hər biri Türkiyə dövlətinin mühafizəsinə xidmət edir. Bunu kompozisiyada yer alan Hərbi Hava Qüvvələrinin (PUA-lar) və Quru Qoşunlarının (tankın lüləyi) Türkiyə xəritəsinin sərhədindən kənara çıxmaması şərtləndirir. Lakin tablonun aşağı – mərkəzi hissəsində müasir nəqliyyat yolunun xəritənin hüdudlarını aşması və həmin yolda Türkiyənin ilk elektrikli TOGG avtomobilinin hərəkət etməsi, o cümlədən sağ tərəfdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin də xəritədən kənara çıxması Türkiyənin Beynəlxalq iqtisadi aləmə inteqrasiyasını xarakterizə edir.

Kompozisiyanın aşağı hissəsində Türkiyə xəritəsini soldan sağa müşayiət edən zeytun budağı Rəcəb Tayyib Ərdoğanın "Zeytun budağı" əməliyyatını simvolizə etsə də, onun kökünün başlanğıcı məhz Türkiyə Cümhuriyyətinin qurulmasının yüz illiyi ilə əlaqədar olaraq Mustafa Kamal Atatürk tərəfdən verilib. Rəcəb Tayyib Ərdoğanın başının üzərində Türk Dövlətləri Təşkilatının bayrağının işartısı isə Böyük Turan imperiyasını ifadə edir.

Tablonun ən diqqətçəkən məqamlarından biri kompozisiyanın yuxarı hissəsində Azərbaycanın 44 günlük II Qarabağ müharibəsində milli qəhrəmanlıq simvolu olan Şuşa qalası və önündə zəfər rəmzi olan Xarıbülbülün təsvir

edilməsidir. Bu onun göstəricisidir ki, XX əsrin əvvəllərində Çanaqqala döyüşü uğrunda azərbaycanlılar öz canlarından keçərək Türkiyə xalqının yanında idisə, bu gün – XXI əsrin əvvəllərində baş verən II Qarabağ Müharibəsində də Türkiyə xalqı Azərbaycanın yanında olduğunu bütün dünyaya nümayiş etdirdi. Bütün bu detallar, istər siyasi, istərsə də mədəni arenada Türkiyə - Azərbaycan qardaşlığının, "Bir millət, iki dövlət" devizinin əyani təcəssümüdür.

Ülkər Əbülfətin yaradıcılığında portret janrı ilə yanaşı mənzərə janrı da daha geniş yer tutur. Azərbaycanın, xüsusilə Qarabağ və Zəngəzurun tarixi memarlıq abidələri, o cümlədən ölkəmizin səfalı təbiətini özündə əks etdirən mənzərə əsərləri özünün milli koloriti və rəng əlvanlığı ilə diqqət çəkir. Bu mənada rəssamın dini memarlıq abidələri özündə əks etdirən "Qarabağlar türbəsi. Naxçıvan" (2022), "Ağdam Cümə məscidi" (2022), "Məbəd. Zəngəzur" (2022), "Xudavəng monastır kompleksi. Kəlbəcər" (2022), "Ağoğlan məbədi. Laçın" (2022), "Məbəd. Göyçə mahalı" (2023), müdafiə xarakterli tikililərə həsr olunmuş "Şahbulaq qalası. Ağdam" (2022), "Əsgəran qalası. Xocalı" (2022) və tarixə qovuşmuş körpüləri özündə ehtiva edən "Xudafərin körpüsü. Cəbrayıl" (2022) və s. əsərlərinin adlarını çəkmək olar. Adları sadalanan əsərlərdən də göründüyü kimi, gənc rəssamın keçmişə "qayıdışı", tarixi abidələrimizə müraciəti onun əsərlərində milli irsin yeni, daha müasir tutumlu təfsiri ilə əyaniləşmişdir.

Memarlıq abidələri ilə yanaşı Ülkər Əbülfət Azərbaycanın füsunkar təbiətini tərənnüm edən "Mənzərə" (2016, 2022), "Çinar meşəsi. Zəngilan" (2022), "Çətir şəlaləsi. Şuşa" (2023), "Cıdır düzü. Şuşa" (2023), "İstisu. Kəlbəcər" (2023), "Bakı" (2023) və s. mənzərə əsərlərinin müəllifidir. Rəssamın təbiət mənzərələrində daha çox XIX əsrin görkəmli rus rəssamı İ.Şişkinin və xüsusilə XX əsr Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Xalq rəssamı Səttar Bəhlulzadənin təsirini görmək mümkündür. Odur ki, Ülkər Əbülfətin təbiət motivli mənzərə əsərləri özünün kompozisiya quruluşuna, gözoxşayan rəng və zəngin naxış örtüyünə görə onunla təmasda olanlar tərəfindən cəlbedici, bir çox hallarda isə düşündürücü qəbul olunurlar.



**Ülkər Əbülfət. “Ağdam Cümə məscidi”. 2022.**

Rəssamın Qarabağ motivli əsərləri arasında “Qarabağ atları, Qarabağ xalçasının izi ilə” (2020) əsəri xüsusilə seçilir. Qarışıq texnikada – qrafik cizgilər və yağlı boya ilə icra edilmiş bu əsər olduqca maraqlı, məntiqlə və dərindən düşünülmüş kompozisiya quruluşuna malikdir. Belə ki, kompozisiyanın mərkəzində iki şaxə qalxmış at təsviri verilib. Atın birinin üzəri Qarabağ kilimi, digərinin üzəri isə Qarabağ xalçası ilə əhatələnib. Əsərdə sevinc (xalça) və kədər (kilim) bir araya gətirilib: xalça – ailə qurarkən özləri ilə xalçanı cehiz kimi aparan gəlinləri, kilim isə – müqəddəslik əlaməti olaraq Vətən uğrunda canlarını fəda edən, işğal edilən torpaqları geri qaytarsalar da özləri qayıtmayan şəhidləri simvolizə edir. Şaxə qalxmış atların təsviri eyni zamanda kişilik, qardaşlıq və qələbə rəmzini ifadə edir.

Yağlı boya ilə işlənmiş at fiqurlarının fonunda qrafik cizgilərlə üst-üstə sıralanmış cərgələrdə Qarabağın görkəmli tarixi memarlıq abidələri təsvir

edilmişdir. Kompozisiyanın yuxarı mərkəzi hissəsində Şuşa qalası (XVIII əsr), bir qədər aşağıda – tablonun sol hissəsində Əhmədalılar türbəsi (XIII əsr, Füzuli rayonu), mərkəzi hissədə Əsgəran qalası (XVIII əsr, Xocalı rayonu), sağ hissədə isə Ağoğlan məbədi (V-VI əsrlər, Laçın rayonu) təsvir edilib. Kompozisiyanın daha aşağı hissəsində – mərkəzdə yuxarıdan aşağıya doğru Şahbulaq qalası (XVIII əsr, Ağdam rayonu), Kəlbəcər dağları və 15 aşırımlı Xudafərin körpüsü (VII əsr, Cəbrayıl rayonu) bədii görüntüyə gətirilib. Tablonun yuxarı sağ və sol hissələrində Xarıbülbül təsvirlərinin də yer alması müəyyən mənada kompozisiyanın bədii həllinin tamamlanmasına xidmət edir.

Ülkər Əbülfətin yaradıcılığında say azlığı ilə seçilsə də natürmort janrında yaradılan əsərləri duyulası dərəcədə özünün ifadəliliyi ilə diqqət çəkir. “Güllər” (2016), “Lampa ilə natürmort” (2016), “Qarabağın şelli narı” (2022), “Xarıbülbül” (2022), “Muğam” (2023) adlı natürmortları bu qəbildəndir. Rəssamın digər əsərləri kimi natürmort janrlı əsərlərinin də həmkarlarının əsərləri ilə rəqabət gücündə olması bir çoxlarından fərqli olaraq onun ruhunda doğrudan da bədii-yaradıcı potensialın mövcudluğunun göstəricisidir.

Ülkər Əbülfət rəssamlıqla yanaşı 2020-ci ildən etibarən Azərbaycan və qardaş ölkənin – Türkiyənin ictimai həyatında da fəal iştirak etməkdədir. Xüsusilə onun layihə rəhbərliyi ilə Xocalı faciəsinin dünya ictimaiyyətinə tanıdılması istiqamətində ardıcıl olaraq Azərbaycan (Biləsuvar, Quba, Goranboy, Gəncə və Bakı), Gürcüstan (Tbilisi) və Türkiyədə (İstanbul, Ankara) keçirilən “Xocalı – tarixin qan yaddaşı” adlı silsilə sərgi – tədbirlərini qeyd etmək olar. Bununla yanaşı çoxsaylı vətənpərvərlik layihələrinin ideya müəllifi olan rəssam Xocalı həqiqətlərini dünyaya çatdırmaq məqsədilə 500-dən artıq jurnal çap etdirib 75 ölkənin rəsmi nümayəndəliyinə təqdim etmişdir.

Respublikamızda və ölkəmizin hüdudlarından kənarda keçirilən sərgi və müsabiqələrin davamlı iştirakçısı olan gənc rəssam Ülkər Əbülfətin əsərləri hazırda respublikanın və xarici ölkələrin nüfuzlu qalereya və şəxsi kolleksiyalarında qorunub saxlanılmaqdadır. Rəssamın 2023-cü ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının yüz illiyinə həsr olunmuş “Bir millət, iki dövlət” adlı fərdi yaradıcılıq sərgisi isə Ulu öndərin

xatirəsinə dərin ehtiramın ifadəsi olmaqla yanaşı, eyni zamanda rəssamın pərəstişkarları və sənətsevərlər qarşısında yaradıcılıq hesabatı idi.




**Ülkər Əbülfət. "Qarabağ atları, Qarabağ xalçasının izi ilə". 2020.**

**Nəticə.** Nəticə etibarilə qeyd edək ki, Ülkər Əbülfətin əsərləri ilə tanışlıq təsdiq edir ki, rəssamın bir çox yaradıcılıq nümunələrinin özünəməxsus bədii tutum almasının kökündə onun milli-mənəvi qaynaqlara vurğunluğu və doğma Vətənə duyulası sevgisi dayanır. Sevindirici haldır ki, rəssamın çoxəsrlik bədii ənənələrə malik olan milli təsviri və dekorativ-tətbiqi sənət irsimizə davamlı meyl göstərməsi adi maraq çərçivəsindən çıxaraq özünün əyani təcəssümünü həmin zəngin bədii irsə yaradıcı münasibətdə ifadə edir. Eyni zamanda rəssamın çəkdiyi Qarabağ mövzulu tarixi əsərlərinin əsas qayəsi Azərbaycanın tarixi – mədəni irsini dünya miqyasında tanıtmaq və təbliğ etmək, xüsusilə Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırmaqdır. Məhz buna

görədir ki, Ülkər Əbülfət öz səadətini xalqının zəfərində, doğma yurdunun – Azərbaycanın çiçəklənməsində və beynəlxalq arenada qalib ölkə kimi tanınmasında görür.

## Ədəbiyyat siyahısı

1. Alıyev S. (2022). Rəssamın könül dünyası. Mədəniyyət, №5. S.82-86
2. Xəlilov A. (2023). Ülkər Əbülfət. “Bir millət, iki dövlət”. Bakı, [n..] 50 s.
3. Quliyev R. (2013). Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, Letterprres, 220 s.

**Халилов Аслан Акбер оглы**

## Воспевание патриотического духа в творчестве Улькер Абульфат

## Резюме

Статья посвящена отражению патриотического духа в творчестве одной из молодых представительниц современного изобразительного искусства Азербайджана – Улькер Абульфат. С ранних лет проявившая интерес к живописи, Улькер Абульфат направила своё творчество на раскрытие темы патриотизма, особенно прославившись серией портретов, посвящённых шехидам и Карабахской тематике. Художница использует не только реалистический стиль, но и оригинальные технические приёмы – смешанная техника, нанесение золота, синтез графики и масляной живописи, создавая тем самым индивидуальный художественный язык.

Помимо портретного жанра, в её творчестве важное место занимают пейзажи и натюрморты. Её изображения религиозно-архитектурных памятников, природы и орнаментальных композиций Карабаха и Зангезура демонстрируют художественное отношение к культурно-историческому наследию Азербайджана. Особенно выделяется произведение «Карабахские лошади по следам Карабахского ковра», отличающееся символизмом и философской глубиной. Также в статье отражены её

общественно-культурные инициативы международного масштаба, включая деятельность, связанную с Ходжалинским геноцидом.

**Ключевые слова:** Улькер Абульфат, живопись, творчество, патриотизм, Карабах

**Khalilov Aslan Akbar oghlu**

## The Celebration of Patriotic Spirit in Ulker Abulfat`s Art

**Summary**

The article explores the reflection of patriotic spirit in the work of Ulker Abulfat, one of the young representatives of contemporary Azerbaijani visual art. From an early age, Ulker Abulfat demonstrated a passion for painting and has devoted her creative attention primarily to the theme of patriotism, becoming especially known for her series of portraits dedicated to martyrs and the subject of Karabakh. The artist employs not only a realist style but also develops a distinctive artistic language through the use of mixed media, gold leaf application, and a synthesis of graphic and oil painting techniques.

In addition to portraiture, her work includes landscape and still life genres. Her depictions of the religious and architectural monuments, natural scenes, and ornamental compositions of Karabakh and Zangezur express a deep artistic engagement with Azerbaijan’s cultural and historical heritage. Of particular note is her work “Karabakh Horses: In the Footsteps of the Karabakh Carpet,” which stands out for its symbolic and philosophical depth. The article also highlights her international socio-cultural activities, including initiatives related to the Khojaly genocide.

**Key words:** Ulker Abulfat, painting, creativity, patriotism, Karabakh.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 01.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi:13.05.2025***